# "Fəxri qonaqlar" kitabının möhtəşəm səhifəsi

Tarixi vərəqləyirik. 2005-ci il 18 avqust günü yada düşür, gözlərimiz önünə gəlir. Qədim tarixə malik, gözəlliklər məskəni, təbiətin möcüzələri ilə dolu, Azərbaycanın bir parçası olan Qəbələdə xüsusi canlanma, möhtəşəm izdiham, hər kəsin üzündə bir təbəssüm, sevinc var. Respublikamızın Prezidenti cənab İlham Əliyev regionlara səfəri çərçivəsində həmin gün Qəbələdə idi. Bir neçə obyektin açılışından sonra Qəbələ Tarix-Diyarşünaslıq muzeyindədir. Muzeydə qonaq olan möhtərəm Prezidentimiz qədim Albaniyanın tarixinə, bir sözlə 2500 illik bir dövrə qiyabi səyahət etdi. Nəhayət, qonaqlar yeni bir bölməyə "Heydər Əliyev və Azərbaycan" zalına daxil olur. O, ümummilli lider Heydər Əliyevin Azərbaycan uğrunda, xalqımızın rifahı, xoş gələcəyi naminə əzm və fədakarlığını əks etdirən tarixi sənədlərə, foto materiallara, kitablara, ümumi ekspozisiyaya xeyli diqqət yetirdi. Ekspozisiyadakı Heydər Əliyevin 1978-2002-ci illərdə Qəbələyə rəsmi səfərini əks etdirən fotolar daha çox diqqət çəkəndir.

***«1980-ci illərin əvvəlində xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Qəbələ Tarix-Diyarşünaslıq Muzeyi, şübhəsiz, öz eksponatları ilə diyarın qədim tarixini əks etdirir.***

***Qəbələ, Azərbaycanın qədim torpağıdır, eramızdan əvvəl yazılmış mənbələrdə Qəbələnin adını çəkirlər.***

***Biz öz tarixi və mədəni irsimizə böyük diqqətlə yanaşırıq. Biz öz tariximizi sevməliyik, onu dərindən öyrənməliyik və beynəlxalq ictimaiyyətə təqdim etməliyik. Qəbələ Tarix-Diyarşünaslıq muzeyi bu vəzifələri uğurla yerinə yetirir.***

***Qəbələlilərə öz dərin hörmət və məhəbbətimi bildirirəm».***

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti.**
*Qəbələ.18 avqust 2005-ci il.*

Onu da qeyd etmək istərdim ki, Azərbaycanın ayrı-ayrı regionlarında muzey quruculuğu 1980-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə həyata keçmişdir. Azərbaycanda ilk yaranan altı bölgə muzeyindən biri də məhz Qəbələ Tarix-Diyarşünaslıq Muzeyidir. İlham Əliyev burada dahi şəxsiyyət Heydər Əliyev haqqında yazılan xoş xatirələrə, ürək sözlərinə diqqət yetirdi. Bütün bunlarla o, həm bir oğul kimi, həm də bir vətəndaş kimi qürür və fəxarət hissi duydu. Daha sonra isə İlham Əliyev elə həmin otaqda "Fəxri qonaqlar" kitabına ürək sözlərini yazdı. Bu sözləri ilə o, Azərbaycana, xalqımıza verdiyi yüksək dəyəri ifadə etdi. İndi həmin günlərin xoş anlarını yaşadan fotolar, Prezidentin muzeyimiz haqqında yazdığı rəy ekspozisiyamızda qorunub saxlanılmaqdadır. Tariximizə, mədəni irsimizə, xalqımıza verilən yüksək qiymətin ifadəsi olaraq istərdim ki, bu dəyərli fikirləri, tarixin o möhtəşəm anlarının xoş kəlmələrini hər bir kəslə bölüşüm:

Bəli, lakonik şəkildə ifadə olunan bu sözlərdə Azərbaycan tarixinə, maddi irsə, mədəniyyətə, muzeyə, muzey işinə verilən yüksək qiymət, dəyər, vətənə bağlılıq ümumi şəkildə əksini tapmışdır. Artıq muzeyimizin fonduna daxil olan Prezidentimizin bu rəyi, ürək sözləri yeni nəsillər üçün tarixi, qiymətli sənəd kimi qorunub saxlanılmaqdadır. Yaddaşımızda, muzeyimizin ekspozisiyasında tarixin bu möhtəşəm anları dərin iz qoymuşdur. Muzeyimiz milli sərvətlərimizi mühafizə etdiyi kimi geridə qalan hər bir günümüzün bu cür möhtəşəm anlarını da yeni tarix olaraq qoruyub saxlayır.

**İlhamə Seyidova,**
**Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin kiçik elmi işçisi.**

# Yeni təlim strategiyası uğurla həyata keçirilir

Yeni təlim strategiyalarının əhatəli şəkildə tətbiqi ilə əlaqədar olaraq Azərbaycan təhsili günü-gündən daha da inkişaf etməkdədir. Qəbələ Rayon Təhsil şöbəsi və rayon məktəblərinin birgə əməkdaşlığı ilə yeni təlim metodları dərslərdə uğurla tətbiq olunur.

Qəbələ şəhər 3 saylı tam orta məktəbində mart ayı ərzində elektron lövhənin tətbiqi ilə açıq dərs keçirilmişdir. 9 mart 2016-cı il tarixində informatika müəllimi Təranə Mürsəlova IV «b» sinfində «Alqoritmin budaqlanması» mövzusunda açıq dərs təşkil etmişdir. Qəbələ Rayon Təhsil Şöbəsinin işçisi Arifə Bayramovanın, 2 saylı tam orta məktəbin müəllimləri Natella Kərimovanın və Sülhiyyə Cavadovanın, 4 saylı tam orta məktəbin müəllimi Almaz Ağayevanın iştirak etdikləri açıq dərsdə «Alqoritmin budaqlanması» mövzusu tam şəkildə əhatə olunaraq keçirilmişdir. Verilən tapşırıqlar, izah olunan mövzular elektron lövhə vasitəsi ilə maraqlı və öyrədici şəkildə işıqlandırılmışdır. Yeni təlim metodlarının və texnologiyaların istifadəsi ilə təşkil olunan dərs iştirak edən hər kəs tərəfindən bəyənilmişdir.

14 mart tarixində VI «a» sinfində riyaziyyat müəllimi Gülnar Eyvazlı «Çevrənin uzunluğu» mövzusunda açıq dərs keçirilmişdir.

Dərsdə təhsil şöbəsinin nümayəndələri, məktəbin direktoru Ədilə Əliyeva və fənn müəllimləri də iştirak edirdi. Elektron lövhədə göstərilən slaydlar, məlumatverici şəkillər, testlər dərsi daha da maraqlı etdi. Tarix fənni ilə inteqrasiya dərsdə iştirak edən hər kəsin marağına səbəb oldu.

Hər iki açıq dərsdə fəal dərsin mərhələləri tam şəkildə özünü göstərdi. Şagirdlərin fəallığı, elektron lövhədə işləmək bacarığı dərsləri daha da maraqlı etdi.

Açıq dərslər Təhsil şöbəsinin nümayəndələri və məktəb rəhbərliyi tərəfindən müsbət qiymətləndirildi. Sonda müəllimlərə təhsil şöbəsnin işçiləri və məktəb direktoru tərəfindən dərslərlə bağlı tövsiyə və tapşırıqlar verildi, fikir mübadiləsi aparıldı.

**Səbinə MİRZƏMMƏDLİ,**
**məktəbin müəllimi.**

# Yeni kitablar

Mərkəzi Kitabxana Sisteminə daxil olan bütün kitabxanaların kitab fondu ümumxalq malıdır. Vətəndaşlar ondan pulsuz istifadə edə bilərlər. Oxucularımızın kitabxanamızdan və yaxud onlara əlverişli olan hər hansı filial-kitabxanalarımızdan ədəbiyyat seçməyə və götürmələrinə imkan verilir. Onlar əvvəlcə kitabxanaya şəxsiyyətlərini təsdiq edən sənədi təqdim etməklə qeydiyyatdan keçirilir.- Hər bir oxucumuz aldığı kitabın sayına görə formulyarda imza etməlidir. Oxucuların sorğuları əsasında onlara kitab verilir.

Əgər kitabxanamızda oxucunun soruşduğu kitab yoxdursa digər kitabxanalarla əlaqə saxlanılır. Oxucunun istək və arzusunu yerinə yetirmək üçün əlimizdən gələn qədər köməklik etməyə çalışırıq. Hal-hazırda kitabxanamıza yeni kitablar daxil olmuşdur. Bu dəfə kitabxanamıza Azərbaycan dili ilə yanaşı türk dilində ədəbiyyat daxil olub.

Kitabxanamıza daxil olan kitabların bir qısminin müəllifini və adlarını sizlərə təqdim edirik.

**Azərbaycan dilində:**

**Elxan Elatlı:** "Görünməyən izlər", "Ələkeçməz Yaquar", "Arxalı canavar", "Bakıdan gələn xəfiyyə", "Qisas gecəsi", **Elçin Hüseynbəyli:** "Yovşan qağayılar", "Balıq adam", **Dan Brovn:** "Da Vinçi Şivrəsi".

**Türk dilində:**

**Yavuz Bülent Bakiler:** "Azerbaycan yüregimdə bir şahdamardır", **HZ Mevlana:** "Aşkın gözyaşları", **İbrahim Ünsal:** "Battal Gazi", "Fatma Teğmen", "Nene Hatun", "Seyit onbaşı", "Turgut reis", **Yahya Kemal:** "Kəndi Gök Kubbemiz", **İsgəndər Pala:** "Əfsane", **Naki Tezel:** "Türk masalları", **Evliya Çələbi:** "Seyahetname", "Ömer Seyfettinden seçmə hikayelər, "Keloğlan Keleş oğlan", **Selami Yıldırım:** "Kral olmak isteyen Çocuk", **Peyami Safa:** "Fatih-Harbiye" və sair.

**Günel Qarayeva,**
**MKS-nin biblioqrafiya prosseslərinin avtomatlaşdırılması şöbəsinin müdiri.**

# Tələbələrlə görüş

Novruz bayramı günlərində tələbə adını qazanan Aydınqışlaq kənd tam orta məktəbinin məzunları məktəbin müəllim və yuxarı sinif şagirdləri ilə görüşə gəlmişdilər. Görüş toplantısını məktəbin direktoru Sevil Nəbiyeva açaraq əvvəlcə məzunları salamladı, onları şərəfli bir adı--tələbə adını qazandıqlarına görə təbrik etdi.

Çıxışına davam edən direktor qeyd etdi ki, Aydınqışlaq kənd tam orta məktəbini bitirmiş məzunlardan bu il ali və orta ixtisas məktəblərinə 14 nəfər məzun daxil olmuşdur. Əvvəlki illərdə də tələbə adını qazanan məzunlarımız az deyildir. Mən bütün tələbələrimizə aldıqları ixtisaslara dərindən yiyələnməyi, müstəqil Azərbaycanımız üçün layiqli kadrlar kimi yetişmələrini arzulayıram.

Sonra söz tələbələrə verildi. Tədbirdə çıxış edən tələbələr on bir il ərzində onlara dərs deyən, tərbiyə verən müəllimlərə, məktəb rəhbərliyinə dərin minnətdarlıq bildirdilər, müəllimlərin onların təlim-tərbiyəsində çəkdikləri zəhməti heç vaxt unutmayacaqlarını söylədilər. Tələbələr eyni zamanda dövlətimiz, xüsusilə cənab Prezident İlham Əliyev tərəfindən Azərbaycan təhsilinin inkişafına göstərilən qayğıdan, müəllim və tələbələrə yaradılan şəraitdən məmnun olduqlarını bildirdilər.

Müəllimlərdən Həmzə Əhmədov, Xanım Zakirova, Natavan Əfəndiyeva çıxış edərək həm IX-XI sinif şagirdlərinə, həm tələbələrə xoş arzu və diləklərini bildirdilər.

Tədbirdə bu sətirlərin müəllifi də çıxış edərək təhsildə qazanılan bilik və nailiyyətlərə görə məzunları və şagirdləri təbrik etdi, onlara təhsil yollarında daha yüksək uğurlar arzuladı.

V sinif şagirdi Nurlanın çaldığı saz havaları da tədbir iştirakçılarının ürəyincə oldu və alqışlarla qarşılandı.

Tədbir məktəbin XI sinif şagirdlərinin göstərdiyi səhnəciklər və rəqsləri ilə başa çatdı.

**Rəna XANCANOVA,**
**Aydınqışlaq kənd diyarşünaslıq klubunun müdiri.**

# Yanvar ayında əhalinin gəlirləri artmışdır

Dövlət Statistika Komitəsindən verilən məlumata görə 2016-cı ilin yanvar-fevral aylarında əhalinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə nominal ifadə ilə 10,2 faiz artaraq 6.459,3 milyon manata çatmışdır. Yanvar ayında əhalinin gəlirlərinin hər nəfərə düşən həcmi 321,2 manat təşkil etmişdir.

Həmin dövrdə gəlirlərin 88 faizi son istehlaka, 9,5 faizi vergilərin sığorta və üzvlük haqların, 2,5 faizi isə kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmişdir. Bütün icbari və könüllü haqlar ödənildikdən sonra əhalinin sərəncamında 2 milyard 780,6 milyon manat və ya əhalinin hər nəfərinə orta hesabla 290 manat vəsait qalmışdır.